# THE SPECIAL TRAINING OF PRIMARY SCHOOL TEACHERS FOR THE FORMATION OF TOLERANCE IN CHILDREN

**Rughiyya Taghiyeva**

Ganja State University,
Senior lecturer of the Department of Fine Arts,
Ph.D. in Pedagogy
E-mail: ruqiyye.tagiyeva87@mail.ru
https://orcid.org/0009-0002-7563-4676

**Abstract.** The article investigates the possibilities and ways of developing tolerance, one of the universal and national issues, in young schoolchildren. Since education is not only a pedagogical issue but also a matter of critical importance from the perspective of societal development, tolerance education is one of the essential and vital qualities that young schoolchildren must acquire. The article highlights the examination of ways to foster tolerance in general educational institutions through a specially organized process. It also discusses the most favorable conditions for the development of socially significant qualities, including tolerance, which emerge precisely during the early school years, and the role and responsibility of primary school teachers in this regard. Additionally, the article presents various methods and pedagogical tools that teachers should employ to nurture and instill tolerance. Based on the analyses conducted, it is noted that both teachers and parents must consider the specific characteristics of young children when applying these methods.
**Keywords:** young schoolchild, tolerance, educational process, teacher, methods and pedagogical resources.

**DOI:**10.30546/2709-2488.3.2024.221.
**To cite this article:** Taghiyeva R. (2024). The special training of primary school teachers for the formation of tolerance in children. *Journal of Preschool and Primary Education*, Vol. 248, Issue III, pp. 53-62.
**Article history:** received – 10.07.2024; accepted – 18.08.2024.

# UŞAQLARDA TOLERANTLIĞIN FORMALAŞDIRILMASI ÜZRƏ İBTİDAİ SİNİF MÜƏLLİMLƏRİNİN XÜSUSİ HAZIRLIĞI

**Ruqiyyə Tağıyeva**

Gəncə Dövlət Universiteti, Təsviri incəsənət kafedrasının
baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: ruqiyye.tagiyeva87@mail.ru
https://orcid.org/0009-0002-7563-4676

**Annotasiya.** Məqalədə ümumbəşəri və milli problemlərdən biri olan tolerantlığın kiçik yaşlı məktəblilərdə formalaşdırılmasının imkan və yolları araşdırılmışdır. Tərbiyə yalnız pedaqoji problem kimi deyil – həm də cəmiyyətin inkişaf problemi baxımından həyati əhəmiyyət kəsb etdiyindən tolerantlıq tərbiyəsi də kiçik məktəb yaşlı uşaqların yiyələnməli olduğu əsas və vacib xüsusiyyətlərindən biridir. Məqalədə ümumtəhsil müəssisələrində tolerantlığın formalaşması yollarının xüsusi təşkil olunmuş prosesdə tədqiqi işıqlandırılır. Həmçinin, şəxsiyyətin sosial əhəmiyyətli xüsusiyyətlərinin, o cümlədən tolerantlığın formalaşması üçün ən əlverişli şəraitin məhz kiçik məktəb yaşında yaranmasından və bu istiqamətdə sırf ibtidai sinif müəllimlərinin üzərinə düşən vəzifə və məsuliyyətdən bəhs olunur. Məqalədə, eyni zamanda tolerantlığın tərbiyə olunması, formalaşdırılması üçün müəllimlərin istifadə etməli olduqları bir çox metod və pedaqoji vasitələr öz əksini tapmışdır. Aparılan təhlillərə əsasən qeyd edilmişdir ki, bu metoddan istifadə edərkən müəllim və valideynlər kiçik yaşlı uşaqların xüsusiyyətlərini nəzərə almalıdırlar.

**Açar sözlər:** kiçik yaşlı məktəbli, tolerantlıq, təlim-tərbiyə prosesi, müəllim, metodlar və pedaqoji vasitələr.

**DOI:** 10.30546/2709-2488.3.2024.221.
**Məqaləyə istinad:** Tağıyeva R. (2024). Uşaqlarda tolerantlığın formalaşdırılması üzrə ibtidai sinif müəllimlərinin xüsusi hazırlığı. *«Məktəbəqədər və ibtidai təhsil»*, № 3 (248), səh. 53-62.
**Məqalə tarixçəsi:** göndərilib – 10.07.2024; qəbul edilib – 18.08.2024

## Giriş / Introduction

Bəşəriyyətin müxtəlif sahələrdə əldə etdiyi irəliləyişlər insanlar arasında qarşılıqlı anlaşma və qarşılıqlı yaxınlaşma üçün əsas olmamışdır. Bununla əlaqədar, YUNESCO-nun təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatı 1995-ci ili tolerantlıq ili və bu ildən etibarən isə hər ilin 16 Noyabrını Beynəlxalq Tolerantlıq Günü elan etdi. Müasir dünyada tolerantlıq problemi ölkəmizdə və beynəlxalq müstəvidə ictimai-siyasi, dini, elmi icmaların müzakirə mövzusudur. Odur ki, "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi", "Uşaq hüquqları Bəyannaməsi", "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt", "Uşaq hüquqları haqqında" BMT Konvensiyası, "Dözümlülük prinsipləri haqqında Bəyannamə", "Azərbaycan Respublikasının Təhsil Konsepsiyası", "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası", Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunu, "Azərbaycan təhsilinin inkişaf strategiyası" və s. kimi bir çox beynəlxalq, eyni zamanda ölkəmizdə qəbul edilən dövlət səviyyəli bəyannamə və hüquqi-normativ sənədlərdə tolerantlığın müxtəlif növlərinin tərbiyə olunmasının vacibliyi, tolerantlığın formalaşdırılması üçün siyasi, sosial və pedaqoji mühitin yaradılması məsələləri təsbit olunmuşdur.

**Metodologiya:** Kiçik yaşlı məktəblilərdə tolerantlığın formalaşdırılması üzrə tədqiqat aparılarkən müəyyən metodlardan istifadə edilib. Belə ki, bu istiqamətdə nəzəri tədqiqat metodlarından istifadə edərək fəlsəfi, psixoloji və pedaqoji ədəbiyyatın nəzəri təhlili, ibtidai məktəbin fənn kurikulumlarının məzmununun, məktəblilərin tərbiyəsi üçün konsepsiya və proqramların təhlili aparılıb. Həmçinin müəllimlərin və ibtidai sinif şagirdlərinin fəaliyyətinin müşahidəsi, anketləşdirmə, testləşdirmə, pedaqoji eksperiment, kiçik yaşlı şagirdlərin fəaliyyətinin təhlilini aparmaq məqsədi ilə empirik metodlardan da istifadə edilib.

## Əsas hissə / Main part

Tolerantlıq müxtəlif insanların bilik sferaları çərçivəsində fərqli mənalar daşıyan mürəkkəb sosial-pedaqoji, fəlsəfi hadisədir və eyni zamanda etik-fəlsəfi anlayış, sosial-mədəni fenomen, sosial-siyasi həll metodu, insanlar arasında qarşılıqlı münasibətlər prinsipidir.

Azərbaycan elmi-pedaqoji fikrində "tolerantlıq – insanın ətrafdakılara dəyərli münasibətidir ki, əhəmiyyətli insani keyfiyyətin etiraf və qəbul olunmasında ifadəsini tapır, digər mədəniyyətlərin onun tərəfindən başa düşülməsi ilə sıx şəkildə bağlıdır. Tolerantlıq bütün insanlara xasdır, şəxsiyyətin ayrılmaz xassəsi kimi özünü göstərir, lakin onun ifadə tərzində müxtəlifliklər var" [Əmirəliyeva İ., 2016].

Azərbaycan Respublikasının “Təhsil haqqında” Qanunu təhsil sahəsindəki dövlət siyasətinin prinsiplərini müəyyənləşdirir. Bunlardan biri çoxmillətli bir dövlətdə milli mədəniyyətlərin və regional mədəni ənənələrin və xüsusiyyətlərin təhsil sistemi tərəfindən qorunmasıdır. İrqindən, milliyyətindən, dinə münasibətindən, inancından, partiya mənsubiyyətindən asılı olmayaraq insanın təhsil almaq hüququ təmin edilir.

İnsanların qarşılıqlı münasibətlərində tolerantlıq tərbiyəsi, tolerantlıq mentalitetinin formalaşması “XXI əsrdə təhsilin ən vacib strateji vəzifəsidir” [Qershunskiy B.S., 2002].

Şagirdlərdə şəxsiyyətə mənsub keyfiyyətlərin formalaşdırılması, o cümlədən tolerantlıq tərbiyəsi üzrə peşəkar müəllim hazırlığı proqramlarının yaradılması respublikamızda tolerantlığın tərbiyəsi sahəsindəki inkişafın göstəricisidir.

Uşaqlarla qarşılıqlı əlaqədə rasional pedaqoji vasitələrin seçilməsi və eyni zamanda onlarda tolerantlığın formalaşdırılması ibtidai sinif müəllimlərinin qarşılaşdığı problemdir. Müəllimin məhsuldar pedaqoji fəaliyyətə hazır olmaması, ilk növbədə, onun peşə müqəddəratını təyinetmə problemi, peşə təhsilinin keyfiyyəti və bəzən hətta peşəsinin tələb etdiyi şəxsi xüsusiyyətlərə malik olmamaları ilə əlaqədardır. Bu baxımdan, peşəkar pedaqoji təhsilin qarşısında duran vacib vəzifə ibtidai sinif müəllimini uşaqlarda tolerantlıq tərbiyəsi üçün hazırlamaqdır ki, bu da tolerantlıq tərbiyəsini müəllimin şəxsi keyfiyyəti kimi qəbul etmək, bu sahədə nəzəri biliklərin formalaşdırılması və elmi əsaslandırılmış pedaqoji vasitələr sistemini özündə birləşdirən bu təhsil istiqamətinin konseptual və texnoloji komponentini mənimsəməkdir.

Özündə tolerantlığın formalaşdırılması müəllimin peşə təliminin ən vacib vəzifələrindən biridir. Tolerantlıq, müəllimin bir tərəfdən real vəziyyəti tam qiymətləndirmə bacarığına, digər tərəfdən isə vəziyyətdən çıxış yolunu görə bilmək qabiliyyətinə əsaslanır. Müəllimin tolerantlığı özündə formalaşdırmaq qabiliyyəti hər şeydən əvvəl, özünə hörmətlə yanaşı, uşaqlar da daxil olmaqla digər insanlara hörmət bəsləmək və peşə ləyaqətinin dərk edilməsi ilə əlaqədardır. Ətrafındakı fərqli insanlara qarşı göstərdiyi münasibətin özü tərəfindən təhlili, öz düşüncələrinin, münasibətlərinin, qərarlarının, hərəkətlərinin emosionallıq və həyəcan olmadan qiymətləndirilməsi də eyni dərəcədə vacibdir və nəhayət, tək özünüqiymətləndirmə deyil, həm də özünüidarə, yəni ətrafındakılardan kiməsə, nəyəsə qarşı mənfi münasibəti idarə etmək istəyi də olmalıdır. Gərgin bir mühitdə əsəbləri cilovlamaq çox çətindir, tolerantlığı olmayan müəllim belə situasiyalarda dözümsüzlük göstərərək vəziyyətin kəskinləşməsinə səbəb ola bilir. Bu o deməkdir ki, hər bir müəllimin özündə peşəkar ləyaqət və bacarıqları səciyyələndirən, məktəb və məktəbdənkənar mühitin və situasiyaların sonsuz müxtəlifliyində meydana çıxan tolerantlığı inkişaf etdirməsi vacibdir.

Dözümlülük həm müəllim-şagird səviyyəsində, həm də şagird-şagird, müəllim-valideyn, müəllim-müəllim səviyyəsində təhsil prosesinin bütün subyektlərinin münasibətlərini əhatə etməlidir. Yalnız bundan sonra o, təlim, tərbiyə və təhsil sahəsində münaqişəli vəziyyətlərin qarşısının alınması və həll edilməsi üçün etibarlı rol oynaya bilər.

Kiçik məktəb yaşı dövründə təfəkkürün əsas inkişaf istiqaməti onun əyani-obrazlı olmasıdır, belə ki, məktəb təliminin başlanğıcında uşaq məktəbəqədər yaş dövrünün əyani-hərəki təfəkküründən vacib elementləri toplayır. Amma bu dövrün sonunda şəxsiyyətin sözlü-məntiqi təfəkkür tipinin inkişafı mühüm əhəmiyyət kəsb edir. Kiçik yaşlı məktəblilərdə təfəkkür əməliyyatlarının inkişafında yüksəlişin olduğunu qəbul etmək vacibdir. Təfəkkür vasitəsi kimi nitqdən fəal şəkildə istifadə nəticəsində kiçik məktəb yaşı dövründən başlayaraq uşaqlarda emosional dairənin zənginləşməsi və daha da şüurlu, təmkinli, iradəli olmalarına doğru inkişaf gedir. Bu yaş dövründə şəxsiyyətin iradi keyfiyyətlərində əhəmiyyətli dəyişikliklər baş verir. İbtidai məktəbdə şagirdlərin bu iradi addımlarında başlıca rol hisslərə məxsusdur ki, onlar da çox zaman davranış motivinə çevrilir. Bu mərhələdə iradə və hisslərin inkişafı daima qarşılıqlı təsir altında baş verir. Təlim-tərbiyə prosesinin gedişində kiçik yaşlı məktəblilərdə iradi keyfiyyətlər təkmilləşir, səbr, qətiyyətlilik, məqsədyönlülük, intizamlılıq kimi keyfiyyətləri təzahür etdirirlər.

Tolerantlığın tərbiyə olunması prosesində əsas məsələ və xüsusi rol müəllimin tolerantlığı özündə formalaşdırmaq səyləri ilə bağlıdır. Bu işdə müəllimin fəaliyyətinin məğzi – (bir nəfərdə yaxud bir çoxlarında) tolerantlığın formalaşması və təzahürü üçün deyil, ümumiyyətlə, şagird kontingentinin davranışında və ünsiyyətində neqativizmə səbəb olan amillərin aradan qaldırılması üçün şərait yaratmaqdır [Komogorov P.F., 2000].

Tolerantlığın tərbiyə olunması, formalaşdırılması üçün müəllimlər bir çox metod və pedaqoji vasitələrdən istifadə etməlidirlər, məsələn, kiçik məktəb yaşlı uşaqların xüsusiyyətlərini nəzərə alaraq tolerantlıq kontekstində şüuru formalaşdıran nəqletmə, başa salma, izahetmə, inandırma, nəsihət, əxlaqi söhbət, disput, şəxsi nümunə kimi metodlardan yararlana bilərlər [Abbasov A., 2015]

*Nəqletmə* ibtidai sinif şagirdlərində nəinki tolerant təfəkkürün inkişafına, tolerant dünyagörüşünün formalaşdırılmasına, həmçinin tolerant insanın keyfiyyət və xüsusiyyətlərinin, şəxsi tolerant emosional sahəsinin zənginləşməsinə də təsirini göstərir.

*Başa salma* aydın olmayan, gizli hadisələr barədə doğru mühakimələr yürütmək imkanı verir və ya kiçik yaşlı məktəblilərdə tolerant şüur inkişaf etdirmək məcrasında bu və ya digər məlum hadisə barədə aydın təsəvvür yaratmaq məqsədi güdür.

*İzahetmə* metodundan tolerant davranış normaları, tələbləri ilə şagirdlər tanış

olmadıqları təqdirdə və ya bu normalar pozulduqda istifadə olunur. Bu metodun tətbiqinin səmərəlilik şərtləri aşağıdakılardır:

- öyüd-nəsihət verərkən metoddan istifadə həddini aşmamalı;
- əvvəldən məlum olan həqiqətlərin izahından sui-istifadə etməməli.

Məktəb təcrübəsində izahetmə inandırmaya əsaslanır ki, bunun da səciyyəvi xüsusiyyəti məktəblinin pedaqoji təsiri münaqişəsiz qəbul etməsidir. “İnandırma, nəzərə çarpmadan şüura sızır, fəaliyyət üçün mexanizm və motivasiya yaradaraq tam şəkildə şəxsiyyətə təsir edir” [Qaralov Z., 2002].

*İnandırma* metodundan müəllim, yalnız o zaman istifadə edir ki, tərbiyə olunan tolerant münasibətlər mexanizmini qəbul etmiş olsun.

Tolerantlığın tərbiyə olunması prosesində *xahiş, nəsihət, izahetmə, inandırma* metodlarından da istifadə olunması səmərəlidir. Qeyd etmək lazımdır ki, kiçik məktəbli şəxsiyyətində tolerant dünyagörüşünün formalaşdırılmasının pedaqoji metodu kimi nəsihətin pedaqoji səmərəsi müəllimin nüfuzundan, onun əxlaqi keyfiyyətlərindən, söz və əməllərinin doğru, inandırıcı olmasından çox asılıdır. Doğru olana dəstək vermək, tərifləmək, şəxsi ləyaqət hissinə müraciət, namusluluq bu metoddan səmərəli istifadə üçün vacib şərtlər kimi çıxış edir. Bəzən nəsihət utanc hissləri, peşmançılıq, özündən və özünün qeyri-tolerant hərəkətlərindən narazı olmaq hissi yarada bilir. Müəllim uşaqlara onları aradan qaldırmağın yollarını göstərir. Qeyri-tolerant hərəkət və onun nəticələrinin mahiyyətini, mənasını inandırıcı şəkildə göstərmək, uşağın davranışına müsbət təsir edəcək səmərəli stimullar yaradır.

İbtidai sinif şagirdləri ilə tolerantlıq mövzusunda aparılan əxlaqi söhbətlərin məramı tolerantlıq kontekstində kiçik məktəbliləri müsahibə üsulu vasitəsilə hərəkətlərinin təhlil və müzakirəsinə cəlb edərək, onlarda əxlaqi dəyərləri inkişaf etdirməkdir. Məqsəd birgə tolerant fəaliyyətə dair əxlaqi anlayışların daha da dərinləşdirilməsi, zənginləşdirilməsi, biliklərin möhkəmləndirilməsi və ümumiləşdirilməsi, onlarda əxlaqi baxış və əqidələr sisteminin formalaşdırılmasıdır.

Əxlaqi söhbətin səmərəliliyi bir sıra vacib şərtlərə əməl etməkdən asılıdır:

- söhbətin problemli xarakterindən, yəni konkret fakt üzrə müsbət baxış, ideya, fikirlərin mübarizəsi, tolerantlıq və ya intolerantlığı üzə çıxarmalı;
- uşaqların hazır cavabları əzbərləməsi ilə söhbətin qabaqcadan hazırlanmış ssenari üzrə həyata keçirilməsinə yol verməməli;
- şagirdlərə düşündüklərini söyləməyə imkan yaratmalı, onlara başqalarının fikirlərinə hörmətlə yanaşmağı, səbrlə və düzgün mövqe seçməyi öyrətməli;
- söhbətin mühazirəyə çevrilməsinə yol verilməməli, tərbiyəçi danışmalı, tərbiyə olunanlar dinləməli;
- söhbətin mövzusu tərbiyə olunanların emosional təcrübəsinə yaxın olmalı;
- məsələyə bütün yanaşma tərzləri və baxışların üzə çıxarılması, qarşılaşdırıl-

ması təmin edilməli, heç kimin fikri inkar olunmamalı;

- şagirdlərin müstəqil surətdə tolerantlıq problemi ilə bağlı lazımi nəticələr çıxarmalarına kömək göstərməli, bunun üçün də tərbiyəçi hadisəyə və ya davranışa tərbiyə olunanın gözü ilə baxmalı, onun mövqeyini və onunla bağlı hissləri başa düşməli;
- müəllim tərəfindən öz növbəsində qulaq asan və danışan rolların seçimi;
- həmsöhbətini dinləmək bacarığı;
- şagird şəxsiyyətinin toxunulmazlığına əməl etməli;
- şagirdin davranış və əməllərini qiymətləndirməli.

İbtidai siniflərdə *dözümlülük* mövzusunda əxlaqi söhbətlər sadə struktura malik olmalıdır. Burada induktiv yoldan istifadəyə üstünlük verilməlidir, yəni tolerantlıq – intolerantlıqla bağlı konkret faktların təhlilindən başlayaraq, onların qiymətləndirilməsinə, ümumiləşdirilməsinə və müstəqil nəticələrin çıxarılmasına doğru getməlidir [Əliyev P., 2007].

*Disput* tolerantlığın inkişaf etdirilməsi metodu kimi dözümlü, birgə fəaliyyətə dair açıq mübahisədir, kiçik məktəblilərdə tolerant şüur formalaşdırmaqdan başqa, tolerant təfəkkür, keyfiyyət və xüsusiyyətlərin inkişafına kömək edir, eyni zamanda şagirdin tolerant davranışının tənzimləyicisi kimi çıxış edir və insanlarla dözümlü birgə fəaliyyətə dair konkret təcrübə yaradır [Əliyev İ., 2007]. Lakin kiçik yaşlı məktəblilərin fərdi inkişaf xüsusiyyətlərini nəzərə alaraq ibtidai siniflərdə disputlardan az istifadə olunur.

*Nümunə* tolerant şüurun formalaşdırılması metodu kimi konkret inandırıcı nümunələr əsasında şəxsi ideal nümayiş etdirmək, tolerant davranış və fəaliyyətin hazır proqram nümunəsini təqdim etməklə bağlıdır [Talıbova X., 2018]. İbtidai məktəbdə uşaqların tolerantlıq tərbiyəsində xüsusi yeri müəllimin müsbət şəxsi nümunəsi tutur. Belə ki, ibtidai sinif müəllimi uşaqlar üçün referent şəxsdir; uşaqlar mücərrəd təfəkkürə malik olduqları üçün müəllimlərini təlqin etməyə meylli olurlar. Nümunə yamsılama üçün konkret misallar verir və bununla yanaşı dözümlülük prinsipi əsasında qurulmuş fəaliyyəti aktivləşdirir, tolerant şüur, hisslər, tolerant inam formalaşdırır.

Tolerantlıq ruhunda tərbiyə tolerant davranış tipini formalaşdırmalıdır. Tolerant şəxsiyyəti təsəvvür və inandırmalardan daha çox konkret əməllər, hərəkətlər xarakterizə edir [Vulfov B.Z., 2002]. Bununla əlaqədar olaraq ictimai davranış təcrübəsi formalaşdıran və bu fəaliyyətin təşkili üzrə metodlara kiçik yaşlı məktəblilərdə tolerantlıq tərbiyəsinin əsas aparıcı yollarından biri kimi baxmaq lazımdır. Bura çalışmalar, göstəriş, alışdırma, tələb, tərbiyəedici situasiya kimi metodlar da daxildir.

Ümumiyyətlə, müəllimlərin böyük əksəriyyəti, daha dəqiq desək, ibtidai sinif və ümumi təhsilin II və III pilləsi üzrə müəllimlərin 70%-i öz peşəkar fəaliyyət-

lərində uşaqların tolerantlıq tərbiyəsini bu və ya başqa dərəcədə təşkil edirlər. Fikrimizcə, ümumtəhsil məktəbinin orta və yuxarı sinif müəllimləri tərəfindən pedaqoji prosesdə tolerantlıq tərbiyəsinin təşkili nəticələrinin yüz faiz olmaması onu sübut edir ki, bu problemin vacibliyi onlar tərəfindən kifayət qədər dərk olunmamış, onun tərbiyə olunmasında əsas məsuliyyət ümumi təhsilin I pillə müəllimlərinin üzərinə qoyulmuşdur. Bu isə təbii ki, şəxsiyyətin sözügedən keyfiyyətinin formalaşmasında kiçik məktəb yaşı dövrünə daha əlverişli bir dövr kimi baxılmasından irəli gəlir. Qeyd etmək lazımdır ki, müasir dövrün ibtidai sinif müəllimləri təlim prosesinin gedişində kollektiv iş formasının köməyi ilə şüurlu humanist münasibət mədəniyyəti üzrə uşaqların tərbiyəsi işi ilə məşğul olur, həmçinin dözümlülüyün inkişaf səviyyəsinin ilkin mərhələsi, yəni uşaqlarda dözümlülüyün (səbrin) formalaşdırılması vəzifəsini qarşılarına qoyurlar.

Uşaqlarda tolerantlığın formalaşdırılması üzrə ibtidai sinif müəllimlərinin hazırlığının vacibliyinin səbəbi ibtidai məktəbin fənn proqramlarında uşaqlarda tolerantlığın formalaşdırılması məsələsinin faktiki olaraq qoyulmamasıdır. Bu da uşaqlarda tolerantlığın formalaşdırılması üzrə ibtidai sinif müəllimlərinin hazırlığı istiqamətində, kiçik məktəb yaşlı uşaqlarda tolerantlıq tərbiyəsinin pedaqoji imkanları və bu yaş dövründə fərdin inkişafının özünəməxsusluğunu əks etdirən bir proqramın hazırlanması üçün təkan vermiş olur [Kərimov Y.Ş., 2010].

Tərəfimizdən müəyyən olunmuş pedaqoji vasitələr sistemi, (maddi və mənəvi mədəniyyət obyektləri vasitəsilə reallaşa bilən imkanlar; müəllim tərəfindən uşaqların fəaliyyətinin xüsusi təşkili imkanları; müxtəlif tərbiyə metodlarından səmərəli istifadə etmək imkanları; tərbiyə işi formaları üzrə imkanlar) uşaqlarda tolerantlıq tərbiyəsi üzrə ibtidai sinif müəllimlərinin peşəkar pedaqoji fəaliyyəti proqramında sistem yaradan faktor kimi çıxış edir. Pedaqoji vasitələr sistemi kiçik məktəbli şəxsiyyətinin bütün tərəflərinin – tolerantlıq şüurunun, hisslərinin, keyfiyyətlərin, həmçinin tolerant davranışın formalaşdırılması üçün vacibdir. Bu sistemin komponentləri bir-biri ilə əlaqəli şəkildə çıxış edir və müəllimlərə kiçik məktəb yaşlı uşaqlarda tolerantlıq tərbiyəsinin ən optimal yolunu seçmək imkanı verir.

## Nəticə / Conclusion

İbtidai sinif müəllimlərinin uşaqların tolerantlıq tərbiyəsi üzrə hazırlanması tərbiyə prosesinin subyekti olan müəllimlər tərəfindən kiçik məktəb yaş dövrü uşaqlarının dözümlülük tərbiyəsinin imkan və yollarının pedaqoji vasitələr sisteminin mənimsənilməsini nəzərdə tutur. Tərəfimizdən bu istiqamətdə tərtib olunmuş proqram və həyata keçirilən tədbirlərin üstünlüyü ondadır ki, onun əsasında aparılan iş bir tərəfdən tolerant müəllim formalaşdırır, digər tərəfdən isə kiçik yaşlı məktəblilərin tolerantlıq tərbiyəsinə dair texnologiyalara və nəzəriyyələrə

müəllimlərin yiyələnmələrinə kömək edir. Bu işin məzmununa şəxsiyyətin vacib keyfiyyətlərindən olan tolerantlığın kiçik yaşlı məktəblilərdə formalaşdırılmasının imkan və yolları, tolerantlıq dəyərinin formalaşdırılmasının pedaqoji vasitələr sistemi daxildir.

İbtidai sinif müəllimlərinin uşaqların tolerantlıq tərbiyəsinə hazırlanması prosesində əsas diqqəti praktiki-istiqamətləndirici hazırlığa; məşğələlərə, müqayisəli çalışmalara, qrup halda diskussiyalara, iş oyunlarına, yaradıcı xarakterli tapşırıqlara, kiçik məktəb yaşlı uşaqların tolerantlıq tərbiyəsi kontekstində pedaqoji tapşırıqların həllinə və pedaqoji situasiyaların təhlilinə yönəltmək lazımdır.

Kiçik yaşlı uşaqlarda tolerantlıq tərbiyəsi üzrə ibtidai sinif müəllimlərinin hazırlanmasına dair tərtib olunmuş proqram tolerant müəllimin formalaşdırılmasında və onların kiçik yaşlı məktəblilərin tolerant inkişafına dair pedaqoji vasitələr sisteminə, pedaqoji texnologiyalara, nəzəriyyələrə yiyələnməsində ən əlverişli vasitədir, bununla yanaşı təklif olunan texnologiya və pedaqoji vasitələr sistemi məktəblilərin dözümlülük tərbiyəsində həqiqi və səmərəli vasitədir.

**Məqalənin aktuallığı.** Ümumi təhsilin ilk pilləsində məktəblərin təhsil işinin təhlili kiçikyaşlı məktəblilərdə tolerantlığı inkişaf etdirmək üçün müəllimlərin yetərincə hazırlanmadığını və əksər hallarda bu işin olmamasını təsdiqlədiyi üçün məqalənin mövzusu aktual hesab olunur. Kiçik yaşlı məktəblilərin tolerantlıq tərbiyəsinin pedaqoji vasitələr sisteminin praktiki istiqamətverici səciyyəsi üzərində ətraflı dayanmaq, həmçinin laborator və praktiki məşğələlər zamanı uşaqlarda dözümlülük tərbiyəsinin texnoloji komponentini işləyib hazırlamaq məsləhət olunur.

**Məqalənin elmi yeniliyi** ondan ibarətdir ki, pedaqoji nəzəriyyə əsasında uşaqlarda tolerantlıq tərbiyəsi üzrə ümumi təhsilin birinci mərhələsində müəllimlərin hazırlanması istiqamətində müxtəlif metod və pedaqoji vasitələrdən istifadə olunmasının məqsədəuyğun olması vurğulanır.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalədə uşaqlarda tolerantlıq tərbiyəsi ilə bağlı ibtidai sinif müəllimlərinin hazırlanmasına dair təlimatlar verilmişdir.

## İstifadə edilmiş ədəbiyyat / References


1. Abbasov A. (2015). Pedaqogika (dərs vəsaiti). Bakı, "Mütərcim", 360 s.
2. Əliyev İ. (2007). İbtidai siniflərdə dərs zamanı şagirdlərin müstəqil işlərinin səmərəlilik şərtləri. Bakı, "Nurlan", 146 s.
3. Əliyev P.B. (2007).Tolerantlıq prinsipinin təlim-tərbiyə işində nəzərə alınması haqqında. Bakı, Azərbaycan məktəbi. № 2, səh. 17-23.
4. Əmirəliyeva İ. (2016). Ali məktəb tələbələrində tolerantlığın formalaşdırılması: monoqrafiya Bakı, "Mütərcim", 148 s.
5. Kərimov Y.Ş. (2010). Sinif müəlliminə verilən müasir tələblər. (Respublika elmi-praktik konfransın materialları). Bakı, səh. 26-36.
6. Qaralov Z. (2002). Tərbiyə. 1-ci hissə. Bakı, "Ünsiyyət", 413 s.
7. Talıbova D.X. (2018). Şagird şəxsiyyətinin inkişafına dəstək mühüm pedaqoji problem kimi. Bakı, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Humanitar, ictimai və pedaqoji – psixoloji elmlər seriyası, №3, səh. 232-238.
8. Vulfov B.Z. (2002). Vospitaniye tolerantnosti: sushnost i sredstva. Vneshkolnik, № 6. s.12-16.
9. Gershunskiy B.S. (2002).Tolerantnost v sisteme tsennostno-tselevix prioritetov obrazovaniya. Moskva, "Pedagogika", № 7, s.3-12.
10. Komogorov P.F. (2000). Formirovaniye tolerantnosti v mezhlichnostnikh otnosheniyakh studentov visshego uchebnogo zavedeniya: (dis. kand. ped. nauk) "Kurgan", 191 s.